TELCON
complex IT solutions

TELCON, ETİBAR YARADIRIQ

2

GƏLƏCƏKDƏN ƏMİN OLMAQ ÜÇÜN, BU GÜNÜ MÜHAFİZƏ EDİRİK.

4

# ŞİRKƏT HAQQINDA

## Telcon MMC

**2010** cu ildən fəaliyyət göstərir.

Bu gün zəif axın sistemləri demək olar ki, bütün infrastrukturlarda mövcuddur. Onlar, iş və məişət həyatımızın keyfiyyətini müəyyənləşdirən amillərdən birinə çevrilmişdir. Bu sistemlərin etibarlılığına təsir edən bütün amilləri isə, yalnız peşəkar komanda nəzərə ala bilər.

Komandamız, zəif axın avadanlıqlarının birbaşa təchizatı, satışı və quraşdırılmasını həyata keçirməklə, bu sahə üzrə tam ixtisaslaşmışdır.


















## MÜŞTƏRİLƏRİMİZƏ QATDIĞIMIZ DƏYƏR

- Layihə öncəsi obyektin ödənişsiz auditi
- Qiymət/keyfiyyət mütənasibliyinin qorunması şərti ilə, optimal avadanlıqların seçilməsində dəstək
- Sistemlərin quraşdırılması zamanı, dizayn və layihələndirmənin bütün incəliklərinin nəzərə alınması
- Ödənişsiz və peşəkar məsləhət xidməti
- Zəmanətli və zəmanətdən kənar uzun müddətli texniki dəstək

# MİSSİYAMIZ

1 **MÜASİR YANAŞMALAR**
Mühafizəni və əminliyi təmin edən qabaqcıl təhlükəsizlik həlləri təqdim etmək

2 **ARAŞDIRMA VƏ İNKİŞAF**
İnnovativ və etibarlı İT həlləri təqdim edə bilmək üçün, davamlı inkişafa fokuslanmaq

3 **RƏQABƏTƏ DAVAMLILIQ**
Təhlükəsizlik texnologiyasının dinamik inkişafından geri qalmamaq

4 **SOSİAL MƏSULİYYƏT**
Biznes və fərdlər üçün təhlükəsiz mühit yaratmaqla ictimaiyyətin rifahına töhfə vermək

5 **KORPORATİV MƏDƏNİYYƏT**
İşçilərimiz arasında dürüstlük, peşəkarlıq və sosial məsuliyyət mədəniyyətini aşılamaq

# PERSPEKTİVLƏR

### TƏHLÜKƏSİZLİK HƏLLƏRİ

Texnoloji innovasiyalar və müştəri məmnuniyyəti üçün yeni meyarlar müəyyənləşdirən inteqrasiya olunmuş təhlükəsizlik həlləri sahəsində lider olmaq

### YENİ BAZARLAR

Təhlükəsizlik təcrübəmizin müxtəlif sənaye və regionlara müsbət təsir göstərməsini təmin edərək, inkişaf etməkdə olan bazarlara çıxışımızı genişləndirmək

### UZUNMÜDDƏTLİ TƏRƏFDAŞLIQ

Etibar, şəffaflıq və müstəsna dəyərin çatdırılması əsasında müştərilərlə uzunmüddətli tərəfdaşlıq qurmaq

### AI VƏ IOT HƏLLƏR

Təhlükəsizliyin gələcəyini yenidən müəyyənləşdirmək, onu daha ağıllı, fəal və əlçatan etmək üçün AI və IoT-də irəliləyişlər əldə etmək

### POZİTİV İŞ MÜHİTİ

Yaradıcılığın dəstəkləndiyi iş mühitini qorumaq, inkişaf etdirmək və komandamızı yüksək keyfiyyətli məhsul və xidmətlər yaratmağa ruhlandırmaq

# ŞİRKƏTİN STRUKTURU

## LAYİHƏLƏR ŞÖBƏSİ

Komandanın vəzifəsi, layihənin icrasına cavabdeh olmaq və müəyyən həcmdə işi yüksək keyfiyyətlə, minimum risklə və vaxtında başa çatdırmaq üçün, mövcud resurslardan maksimum səmərəli istifadəni təmin etməkdir.

## MONTAJ ŞÖBƏSİ

Montaj komandası, işləri yerinə yetirərkən yüksək keyfiyyəti təmin etmək üçün, bütün lazımi avadanlıqlarla təchiz edilmişdir.

Şöbə əməkdaşları davamlı olaraq müvafiq təlimlərdə iştirak edərək, ixtisaslarını artırırlar. Bu da, yeni texnologiyaların tətbiqi zamanı, xoşagəlməz halların yaranmasının qarşısını alır.




## TEXNİKİ DƏSTƏK ŞÖBƏSİ

Şöbə əməkdaşları, öncədən razılaşdırılmış profilaktik iş qrafikinə ciddi əməl edərək, şəffaf tarif planlarından istifadə edirlər.

Obyektin texniki xüsusiyyətlərindən və quraşdırılmış avadanlığın mürəkkəbliyindən asılı olmayaraq bütün işlər Telcon mütəxəssisləri tərəfindən ən qısa müddətdə və zəmanətlə yerinə yetirilir.









## SATIŞ ŞÖBƏSİ

Satış mütəxəssislərimiz müştərilərin istəklərinə operativ şəkildə cavab verir və şirkətimizin məhsulları ilə bağlı bütün məsələlər üzrə peşəkar məsləhətlər verirlər.

Onların bu işdə 10 ilə yaxın peşəkar təcrübələri mövcuddur.

## REGİONAL DİLER ŞƏBƏKƏSİ

Telcon MMC-nin Qazax, Gəncə, Tovuz, Şəmkir, Quba, Xaçmaz və Naxçıvan şəhərlərində professional diler şəbəkəsi mövcuddur.

Bu şəbəkələr maddi-texniki və xidmət baxımından, şirkətdən tərəfindən tam dəstəklənirlər.

# FƏALİYYƏTİMİZ

## SATIŞ

2010-cu ildən başlayaraq, Telcon MMC ölkəmizin zəif axın sistemləri bazarında avadanlıqların satışı və onların quraşdırılması ilə məşğuldur.

## LAYİHƏLƏNDİRMƏ

Şirkətin mütəxəssisləri konsepsiyanın hazırlanmasından başlayaraq, yekun sənədləşmə də daxil olmaqla, layihələrin həllinə kompleks yanaşma təqdim edirlər.

## MONTAJ

Telcon şirkəti mühafizə sistemlərinin quraşdırılması xidmətlərini və onların yüksək keyfiyyətli konfiqurasiyasını ən yüksək səviyyədə həyata keçirir.

## XİDMƏT

Müştərilərimiz, mühafizə sistemləri üzrə avadanlıqların quraşdırılması üçün müqavilə əsasında göstərilən həm ödənişli, həm də ödənişsiz xidmətlərdən tam şəkildə faydalanırlar.

## TƏMİR-QURAŞDIRMA VƏ SAZLAMA (KONFİQURASİYA)

Konfiqurasiya yalnız yeni layihələr üçün deyil, həm də düzgün işləməyən və montajçının müdaxiləsini zəruri edən obyektlər və avadanlıqlar üçün də tələb oluna bilər.

Mütəxəssislərimiz problemin mürəkkəbliyindən və dərinliyindən asılı olmayaraq, bütün müvafiq məsələləri həll etməyə hazırdırlar.









# İNFRASTRUKTUR

**Şirkətimiz, bir-biri ilə qarşılıqlı əlaqəli fəaliyyət göstərən geniş infrastruktura sahibdir.**

- Daima yenilənən maddi – texniki baza
- Bütün müvafiq lisenziyalar
- Bol çeşidli daimi stok
- Layihələrin kompleks idarəolunması
- Dəstək xidməti
- Layihələr üzrə xüsusi şöbə

12

# BİZNESİN ƏSAS İSTİQAMƏTLƏRİ



# VİDEO MÜŞAHİDƏ SİSTEMLƏRİ

Videomüşahidə sistemlərinin layihələndirilməsi, satışı və quraşdırılması bizim əsas fəaliyyət istiqamətlərimizdən biridir.

Mütəxəssislərimizin çoxillik təcrübəsi və peşəkarlığı bizə ən mürəkkəb layihələri vaxtında həyata keçirməyə imkan verir.



# MÜHAFİZƏ VƏ YANĞIN SİQNALİZASİYA SİSTEMLƏRİ

Bu sistemlər, yanğını və əraziyə icazəsiz müdaxilələri vaxtında aşkarlamağa xidmət edən texniki vasitələrin məcmusudur.

Şirkətimiz mühafizə və yanğın siqnalizasiya sistemlərinin həm satışı, həm də quraşdırılması ilə məşğuldur.



# GİRİŞƏ NƏZARƏT VƏ İDARƏETMƏ SİSTEMLƏRİ

Bu, əsas təhlükəsizlik problemlərini həll etməyə imkan verən, vahid şəbəkədə birləşdirilmiş avadanlıq və texniki vasitələr toplusudur.

Şirkətimiz girişə nəzarət və idarəetmə sistemlərinin həm satışı, həm də quraşdırılması ilə məşğuldur.




# İNTERCOM SİSTEMLƏRİ

İnterkom həlləri artıq bir rabitə xətti və düyməsi olan qapı zəngi deyil. Rabitə və binaya nəzarət üçün zəngin seçim imkanları yaradan interkom, binanın təhlükəsizliyi, girişə nəzarət, parkinq və obyektlərə texniki qulluq üçün bütün audio və video kommunikasiya texnologiyalarını özündə birləşdirən mərkəzi qovşaqdır.

Mənzillər və çoxmərtəbəli obyektlər (yaşayış, biznes və s.) üçün nəzərdə tutulan bu sistemlər vətəndaşların və onların onların əmlakının təhlükəsizliyinin təmin edir.



# İP TELEFONİYA SİSTEMLƏRİ

IP-telefoniya – təşkilatların müasir kommunikasiya tələblərinə cavab verən, etibarlı və inkişaf etmiş texnologiyadır.

İP telefoniyanın əsas üstünlüyü onun miqyaslılığıdır, çünki o, müəssisələrə fiziki infrastruktur dəyişikliklərinə ehtiyac olmadan telefon xətlərini asanlıqla əlavə etməyə və ya silməyə imkan verməklə yanaşı, onu müxtəlif rabitə ehtiyacları olan şirkətlər üçün çevik həll vasitəsinə çevirir.



# ALTERNATİV ENERJİ VƏ İRİ TUTUMLU UPS SİSTEMLƏRİ

Alternativ enerji mənbələrinin imkanlarından istifadə etmənin bir çox üstünlüklər var və bu hər gün daha da əlçatan olur. Bu sahənin sürətli inkişafından geri qalmamaq üçün, şirkətimiz günəş enerjisindən istifadəni nəzərdə tutan kompleks həllər təklif edir.

Şirkətimiz günəş panelləri və komponentlərinin həm satışı, həm də quraşdırılması ilə məşğuldur.

Müasir dünyamızı kəsilməz enerji qaynağı adlandırılan UPS sistemlərsiz təsəvvür etmək mümkün deyil. Bunu nəzərə alaraq, şirkətimiz iri tutumlu UPS avadanlıqlarının satışını və quraşdırılmasını həyata keçirir.

Mütəxəssislərimiz enerjinin qorunub saxlanması üçün, praktik və müasir həllər təqdim etməklə, artıq ölkəmizdə bir çox stratei layihələr həyata keçirmişdir.



# STRUKTURLAŞDIRILMIŞ KABEL SİSTEMİ

Bu, müxtəlif məqsədlər üçün informasiya xidmətlərini vahid sistemdə birləşdirən çoxfunksiyalı kabel şəbəkəsidir. Şirkətimiz kabel şəbəkələrinin həm satışı, həm də quraşdırılması ilə məşğuldur.



# VİDEO KONFRANS SİSTEMLƏRİ

Video konfrans sistemləri şirkətimizin innovativ məhsul istiqamətlərindən biridir. Audio və video konfrans sistemlərinin dizaynını və funksiyalarını optimallaşdırmaq üçün, partnyor şirkətlərimiz böyük səylər göstərir və bu istiqamətdə müstəqil araşdırmalar həyata keçirir.

Video konfrans seriyasına USB kameralar, konfrans kameraları, mikrofon və dinamiklər, video konfrans sistemləri və s. kimi məhsulların tam çeşidi daxildir ki, bu da video konfrans distant təhsil və canlı yayımın effektivliyini əhəmiyyətli dərəcədə artıra bilir.

# BİZİM FƏRQİMİZ

### KOMPLEKS YANAŞMA

Şirkətimizin statusu bizə quraşdırma prosesi çərçivəsində mümkün olan bütün genişmiqyaslı tapşırıqları yerinə yetirməyə imkan verir. Müştərilərimiz layihə ilə bağlı bütün fəaliyyəti vahid partnyordan təmin etməklə, ən dəyərli resursları olan, zamana və pula qənaət etmiş olurlar.

### MÜŞTƏRİ RESURSLARINA QƏNAƏT

İşlərin səlis və harmonik təşkili, onları yerinə yetirmək üçün tələb olunan zaman müddətini qısaltmağa imkan verir. Keyfiyyətə çox mərhələli nəzarət isə qüsurların qarşısını vaxtında almağa kömək edir. Bu zaman, müştəri daha aşağı büdcə ilə, istədiyi nəticəni əldə edir.

### İCRA MÜDDƏTİNƏ QÜSURSUZ RİAYƏT

İşçilərimizin çoxillik təcrübəsi və yüksək peşəkarlığı işlərin icra müddətlərinin dəqiq hesablanmasını və onlara qüsursuz bir şəkildə riayət edilməsini təmin edir.

### UNİKAL TEXNİKİ DƏSTƏK

Telcon-da Azərbaycanda ilk səlahiyyətli xidmət mərkəzi fəaliyyət göstərir. Biz, başqalarının imtina etdiyi işləri də operativ şəkildə həyata keçiririk. Bizimlə, təhlükəsizlik sistemi fasiləsiz işləyir.

### KEYFİYYƏTƏ ZƏMANƏT VƏ YAXŞI REPUTASİYA

Şirkətimiz təhvil verilən hər bir iş üçün, ən yaxşı təcrübəyə, dürüstlüyə, professionallığa və müştərinin etibarına sadiq qaldığına zəmanət verir. Eyni zamanda, təqdim etdiyimiz hər bir məhsul, xidmət üçün, müvafiq olaraq orta və uzun müddətli zəmanətimiz mövcuddur.

Fəaliyyətimizin dəyərini və keyfiyyətini çoxsaylı rəylər, tövsiyələr və müştərilərin minnətdarlığı təsdiqləyir.

### İRİMIQYASLI LAYİHƏLƏRİN İCRASINDA BÖYÜK TƏCRÜBƏ

Müxtəlif struktur bölmələrin, təcrübəli mütəxəssislərin və peşəkar texniki avadanlıqların mövcudluğu, bizə ən böyük, ən həcmli və mürəkkəb layihələri uğurla həyata keçirmək imkanı verir.

Məsuliyyət, fəaliyyətimiz üçün prioritetdir.

### FƏALİYYƏTİN ÇOXŞAXƏLİ İXTİSASLAŞMASI

Şirkətimiz 13 illik fəaliyyəti dövründə bir çox fərqli sahələrdə layihələr həyata keçirmişdir.

Buraya yaşayış binaları, ticarət mərkəzləri, idman və əyləncə kompleksləri, banklar, inzibati və sənaye binaları kimi müxtəlif təyinatlı, fərqli obyektlər daxildir.



# PARTNYORLARIMIZ

Telcon MMC “Dahua Technology”, “İTK”, “İEK Group”, və “Eldes Alarm” kimi tanınmış brendlərin rəsmi distribyutorudur.



23

# MÜŞTƏRİLƏRİMİZ

"Azerbaijan Airlines", "ARTN", "MCdonalds", və "SOCAR" və s. kimi tanınmış brendlər müştərilərimizdir.

AZERBAIJAN AIRLINES

AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ

Azərbaycan Respublikası Səhiyyə Nazirliyi

ADY Azərbaycan Dəmir Yolları

azərpoçt HƏR YERDƏ SİZİNLƏ

AFFA

UNIVERSITET UNIVERSITY ADA

AZƏRBAYCAN RESPUBLİKASI DÖVLƏT MİQRASİYA XİDMƏTİ

Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi

Unibank Sənin Bankın

Winter Park Hotel BAKU

# MÜŞTƏRİLƏRİMİZ

"UNİBANK", "ADA", "AFBBANK", və "AFFA" və s. kimi tanınmış brendlər müştərilərimizdir.

# GÖRÜLMÜŞ İŞLƏR

Telcon MMC tərəfindən görülmüş bir sıra işlərimiz:






## AZƏRİŞIQ ASC

Dövlət qurumlarının strateji layihələrində iştirak, fəaliyyətimizin önəmli istiqamətlərindən biridir.

"Azərişıq" ASC-nin sifarişi ilə, işğaldan azad olunmuş Cəbrayıl rayonunda, Cəbrayıl Elektrik Şəbəkəsi İdarəetmə Mərkəzinin dam örtüyündə **günəş panelləri quraşdırılmış** və **yaşıl enerji mənbəyinin şəbəkəyə inteqrasiyası** həyata keçirilmişdir.

## AZƏRBAYCAN RESPUBLİKASININ MİNATƏMİZLƏMƏ AGENTLİYİ

İşğaldan azad olunmuş ərazilərin minalardan təmizlənməsi prosesi, bu ərazilərin davamlı və təhlükəsiz inkişafı üçün ilk addımlardandır. Şirkətimiz bu istiqamətdə də öz töhvəsini vermişdir. **ANAMA**-nın sifarişi ilə, qurumun Xocavənd rayonunda yerləşən mobil minatəmizləmə məntəqəsi elektrik enerjisi ilə təchiz etmək üçün, günəş panelləri və enerjinin saxlanması üçün **2.4 kVt gücündə bərpa olunan batareya quraşdırılmışdır**.





# GÖRÜLMÜŞ İŞLƏR

Telcon MMC tərəfindən görülmüş bir sıra işlərimiz:



## QARADAĞ GÜNƏŞ ELEKTROSTANSİYASI

Layihə, sabit fokus məsafəsinə malik 2 meqapiksellik **Bullet WizSense Network** kamerası olan, xüsusi dirəyin quraşdırılması yolu ilə həyata keçirilib.

**Monokristal günəş panelləri** vasitəsilə fasiləsiz enerji təchizatı təmin edilib.

## AZƏRBAYCAN İNVESTİSİYA HOLDİNQİ

Qurumun müştəri və əməkdaşlarının özlərini inamlı və rahat hiss etmələri üçün, müasir kompleks **videomüşahidə sisteminin**, həmçinin, **girişə nəzarət və idarəetmə sistemi**nin quraşdırılması ilə bağlı şirkətimizin qarşısında qoyulan vəzifələr, yüksək səviyyədə həyata keçirilmişdir.



# GÖRÜLMÜŞ İŞLƏR

Telcon MMC tərəfindən görülmüş bir sıra işlərimiz:




## AFFA

Azərbaycan Futbol Federasiyaları Assosiasiyasının tələbi obyektin perimetri və interyeri daxilində **videomüşahidə kamerası** quraşdırmaq və real vaxt rejimində **yüksək keyfiyyətli monitorinqi** təmin etmək idi ki, mütəxəssislərimiz bunun da öhdəsindən layiqincə gəldilər.

## AZƏRBAYCAN RESPUBLİKASI DÖVLƏT MİQRASİYA XİDMƏTİ

Müştəri tərəfindən qarşımıza qoyulan, **müasir kompleks videomüşahidə sisteminin layihələndirilməsi** və **yüksək keyfiyyətli real vaxt monitorinqinin** təmin edilməsi tələbləri təmin olundu.



# GÖRÜLMÜŞ İŞLƏR

Telcon MMC tərəfindən görülmüş bir sıra işlərimiz:



## SOCAR POLYMER

Müəssisənin təhlükəsizliyini təmin etmək üçün, müasir kompleks **videomüşahidə sisteminin qurulması** üzrə vəzifələr qoyulmuşdu.

Zavod və ya iri sənaye müəssisəsinin mühafizə sistemlərinin əsas elementi **mühafizə videomüşahidəsidir.**

## ABŞERON LOGİSTİKA MƏRKƏZİ

Müəssisənin səmərəliliyi və məhsuldarlığı, o cümlədən Abşeron Logistika Mərkəzinin əməkdaşlarının və müştərilərinin tam təhlükəsizliyi üçün, **müasir kompleks videomüşahidə sisteminin qurulması**, həm məntəqələrin özündə, həm də ehtiyat nüsxələrində **videoməlumatların saxlanmasının təmin edilməsi** tələbləri uğurla təmin olunmuşdur.



# GÖRÜLMÜŞ İŞLƏR

Telcon MMC tərəfindən görülmüş bir sıra işlərimiz:



## PLAYER CYBER BAR

Videomüşahidə sistemləri istənilən müasir şirkətin təhlükəsizliyinin açarıdır. Bu sistemlər adətən **yanğın siqnalizasiyası** və **girişə nəzarət** ilə inteqrasiya olunmuş **idarəetmə və monitorinq** mərkəzinin bazasında yerləşdirilir.

“Player Cyber Bar” da, bu layihəni uğurla həyata keçirmək üçün, Telcon MMC-ni seçdi.

## AZƏRPOÇT

Obyektlərin təhlükəsizliyi bir çox insanın birgə səylərini və əhəmiyyətli vəsaitlərin cəlb edilməsini tələb edən mürəkkəb bir işdir.

Əmlakın, əməkdaşların və müştərilərin təhlükəsizliyini təmin etmək, o cümlədən işlərin tam prosesinə distant rejimdə nəzarət etmək məqsədilə, Azərbaycan Respublikası “Azərpoçt” MMC-nin bütün poçt şöbələrində **videomüşahidə sistemlərinin quraşdırılması** ilə bağlı tapşırıq, uğurla həyata keçirilmişdir.



# GÖRÜLMÜŞ İŞLƏR

Telcon MMC tərəfindən görülmüş bir sıra işlərimiz:



## ADY BAKI DƏMİRYOL VAĞZALI

Telcon MMC-nin 2017-ci ildəki ən uğurlu və strateji layihələrindən biri də ADY-nin Bakı Dəmiryol Vağzalı idarəsinin tam perimetr üzrə **videomüşahidə** və **monitorinq mərkəzinin videowall sistemlərinin quraşdırılması** oldu.

Bundan başqa, qeyd olunan strukturda, İdarə Heyəti üzvlərinin təhlükəsizliyi üçün, **girişə nəzarət və idarəetmə sistemi** də qurulmuşdur.

## ADA MULTİMEDİA AUDİTORİYASI

Azərbaycanda ilk dəfə **Dahua LED Ekran layihəsi** ADA Universitetində şirkətimiz tərəfindən icra edilmişdir.

Akademiyanın Multimedia otağında **40 m$^2$ sahəsi** olan divar, **xüsusi texnoloji LED ekranlarla** yığılıb tələblərin istifadəsinə verilmişdir.



# MÜŞTƏRİ RƏYLƏRİ

Dəyərli müştərilərimizin şirkətimiz və xidmətlərimiz haqqında rəyləri:

## Inprocon MMC

Telcon bizim IT və zəif axın xidmətləri üzrə strateji partnyorumuzdur. Bu komanda son dərəcə yaradıcı, diqqətli və bütün işlərində yüksək standartları gözləyən əməkdaşlardan ibarətdir.

Baş Direktor, **Elnur Nəcəfov**

## Holiday Inn

Telcon əməkdaşları otelimizin binasını, tam perimetri əhatə edən 3 MP 180 ədəd kamera müşahidə sistemi ilə peşəkar şəkildə təmin etdilər. Onlar yalnız etibarlı partnyor deyil, həm də işlərini peşəkar səviyyədə bilən bir komandadır.

Təhlükəsizlik üzrə Menecer, **Həsənov İ.**

## McDonalds Azərbaycan

Telcon bizim üçün İP həlləri və yeni restoranımızda müşahidə nəzarət sisteminin quraşdırılmasını həyata keçirdi. Çox professional, operativ və kommunikasiyaya açıq komandaları var.

IT Direktor, **Naumkov Roman**

## Milli Aviasiya Akademiyası

Birgə əməkdaşlıq fəaliyyəti müddətində şirkətin əməkdaşları özlərini müsbət tərəfdən göstərməklə yanaşı, üzərlərinə düşən öhdəliklərin yüksək səviyyədə, keyfiyyətlə və müvafiq zaman çərçivəsində həyata keçirdilər.

Birinci prorektor, **Ədalət Səmədov**

## Player Cyber Bar

Əməkdaşlığımız müddətində yüksək professionallıq, operativlik və etibarlılıq nümayiş etdirdilər. Dərin minnətdarlıq hissi ilə bildirirəm ki, komanda bütün işlərini norma və standartlara uyğun, yüksək keyfiyyətlə icra edir.

Direktor, **Hüseynzadə Rüfət**

## ASB Bank

Telcon əməkdaşlarının sayəsində, Azərbaycan Respublikası ərazisində yerləşən bütün filiallarımız videomüşahidə sistemləri üçün mərkəzləşdirilmiş arxiv ilə təchiz olundu. Qeyd olunan işlər razılaşdırılmış zaman müddətində, yüksək keyfiyyətlə icra olundu.

IT Menecer, **Bədəlov Orxan**

## Socar Polymer

Artıq 3 ildir ki, videomüşahidə və girişə nəzarət sistemləri üzrə Telcon şirkəti ilə əməkdaşlıq edirik. Onları xüsusilə fərqləndirən cəhətlər yüksək peşəkarlıq, əməkdaşların nizam intizamı və güclü komanda ruhudur.

IT Direktor, **Ədalət Müslümov**

# BİZİMLƏ ƏLAQƏ

Telefon:

**+994 (12) 310 55 00**
**+994 (99) 310 55 00**

Email

**info@telcon.az**

Ünvan:

**Bakı, Ə.Rəcəbli 69X**

BİZİ SOSİAL MEDİADA İZLƏYİN!

FACEBOOK

INSTAGRAM

LINKEDLN




**Bakı, Əhməd Rəcəbli 69X**

TELCON.AZ

TELCON
complex IT solutions